L D U
1992
LƏNKƏRAN DÖVLƏT UNIVERSITETI

LƏNKƏRAN RAYON
MƏRKƏZİ XƏSTƏXANASI

Lənkəran Dövlət Universitetinin Lənkəran Rayon Mərkəzi Xəstəxanası PHŞ
ilə birgə elmi-texniki əməkdaşlığına dair

# M Ü Q A V İ L Ə

"Tərəflər" adlanan Lənkəran Dövlət Universiteti (bundan sonra LDU) və Lənkəran Rayon Mərkəzi Xəstəxanası PHŞ (bundan sonra LRMX) qarşılıqlı maraqları təmin edən fəaliyyət sahələrində əməkdaşlığın yaradılması məqsədi ilə bu Müqaviləni imzalamışlar.

## Əməkdaşlığın məqsədi

1. Müvafiq müəssisənin öz fəaliyyət sahəsinə uyğun tədris və elmi-tədqiqat fəaliyyətinə marağının artırılması;
2. LDU və LRMX imkanlarını nəzərə alaraq, tibb sahəsində birgə innovativ layihələrin hazırlanması və icra edilməsi;
3. Qarşılıqlı maddi-texniki bazalardan istifadə etmək imkanları;
4. Tibbi elmi-praktik konfrans, təlim, ixtisasartırma kurslarının təşkili;
5. Fəaliyyət sahələrinə uyğun qanunvericilikdə nəzərdə tutulmuş formada qarşılıqlı xidmətlərin göstərilməsi.

LDU ilə LRMX aşağıda qeyd edilən fəaliyyətləri üzərlərinə götürürlər:

**Lənkəran Dövlət Universiteti:**

1. Elmi tədqiqatların müştərək aparılması üçün laboratoriyalardan LRMX-nın əməkdaşlarının istifadəsinə şərait yaratmaq;
2. Birgə elmi-praktik konfranslar keçirilməsinə köməklik göstərmək;
3. Birgə yüksək ixtisaslı kadrların hazırlanmasına şərait yaratmaq;
4. LDU-da təşkil ediləcək maarifləndirici tədbirlərdə LRMX əməkdaşlarının iştirakına şərait yaradılması.

**Lənkəran Rayon Mərkəzi Xəstəxanası PHŞ:**

1. LDU-nun tələbələrinin LRMX-da təcrübə keçmələrinə şərait yaratmaq;
2. LDU-nun elmi-praktik konfranslarında LRMX-nın əməkdaşlarının iştirakını təşkil etmək;
3. LRMX-nın şöbələri ilə LDU–nun müvafiq şöbələri arasında elmi əməkdaşlıq aparmaq;
4. LRMX-nın əməkdaşları ilə LDU-nun əməkdaşların birgə elmi-tədqiqat işləri aparmasına şərait yaratmaq.

5. Tələbələrin tibbi biliklərinin artılırması və praktik bacarıqlarının inkişafı məqsədilə müəyyən mövzular üzrə LRMX-da iştirakına şərait yaratmaq;

6. LDU-nun tələbələri və əməkdaşlarına qanunvericilikdə nəzərdə tutulmuş qaydada tibbi xidmətlər göstərmək.

**Müqavilənin müddəti:**

Qarşılıqlı olaraq bağlanmış bu Müqavilə Azərbaycan dilində, 2 (iki) nüsxədə hazırlanmış və 15 noyabr 2024-cü il tarixində "Tərəflər" tərəfindən imzalanaraq mübadiləsi aparılmışdır. Bu Müqavilə 5 (beş) il müddətinə bağlanılmışdır və imzalandığı gündən qüvvəyə minir. Bu Müqavilənin birtərəfli qaydada vaxtından əvvəl ləğv edilməsi yalnız qarşı tərəfə 1 (bir) ay qabaq yazılı xəbərdarlıq edildiyi halda mümkündür. Müqaviləyə uyğun olaraq və 30 gün ərzində planlaşdırılan fəaliyyətlərə birtərəfli qaydada xitam verilə bilməz.

| | |
|---|---|
| Lənkəran Dövlət Universiteti: | Lənkəran Rayon Mərkəzi Xəstəxanası PHŞ |
| ____________**Natiq İbrahimov, rektor** | ____________ **Ağabala Kəlbiyev, direktor** |
| Tarix: 15.11.2024 | Tarix: 15.11.2024 |
| **M.Y.** | **M.Y.** |